<"xml encoding="UTF-8?>

# İMAM MƏHDİ (ə)-IN HÖKUMƏTİ

Zülmətli qaranlıq buludları kənara çəkildikdən sonra dünyanı haqqa bürüyən günəş parlayacaq, .bütün müntəzirlərin gözlərinə nur və aydınlıq bağışlayacaqdır

Bəli, fitnə-fəsadla, pozğunçuluq və namərdliklə aparılan geniş miqayaslı mübarizələrdən sonra ədalət hökuməti bərqərar olunacaq, ədalət hökmranlıq kürsüsünə çatacaqdır ki, hər kəsi və hər bir şeyi öz yerində qərar versin, hər bir varlığın payını haqqın tələbinə uyğun olaraq özünə .qaytarsın

Nəhayət, bütün dünya əhli elə bir hökumətin şahidi olacaqlar ki, başdan-ayağa haqq-ədalətdir, onun sayəsində heç kəsə azacıq belə, zülm və haqsızlıq rəva görülməycəkdir. O, Allahın gözəl və camal sifətlərinin təccəli etdiyi bir məkandır ki, onun sayəsində insanlar özünün unudulmuş .bütün arzularına nail olacaqdır

:Bu fəsildə dörd və istiqamətdə söhbət apracağıq

;İmam Məhdi (ə)-ın dünya hökumətinin hədəfləri .1

Müxtəlif hövzələrdə və sahələrdə imamın hökumətinin proqramları .2

.İlahi ədalət hökumətinin nailiyyətləri .3

.Hökumətin xüsusiyyətləri .4

## HÖKUMƏTİN HƏDƏF VƏ MƏQSƏDLƏRİ

Böyük varlıq aləminin yaradılışının əsas hədəfi insanın mümkün olan qədər kamalı mənbəyinə, yə`ni Allah Taalaya yaxınlaşması və bu böyük arzulara çatmaq özünəməxsus vasitələrlə həyata keçməli olduğundana görə İmam Zəman (ə)-ın dünya səviyyəli hökumətində insanların Allah dərgahına yaxınlaşması üçün mövcud vasitələrin tədarük görülməsi və maneələrin aradan

.qaldırılması əsasında əməl ediləcəkdir

Əlbəttə, insan iki yöndən-cisim və ruhdan təşkil olunduğundan və onun ehtiyacları həm maddi, həm də mə`nəvi yönə bölündüyündən, kamala çatmaq üçün onun hər iki cəhəti hərəkətdə olmalıdır. İlahi hakimiyyətin böyük nailiyyəti olan ədalət də insanın həm maddi, həm də mə`nəvi . yönlərində sağlam inkişafına zəmanət

Buna əsasən, 12-ci imamın hökumətinin hədəfləri insanların mə`nəvi yönündə kamala çatması .və haqq-ədalətin icra olunub genişləndirilməsi yönündə irəli çəkilir